

# Azərbaycan-Türkiyə

# həmrəylik, birlik nümunəsi

***Hər zaman dostluq, qardaşlıq səviyyəsində olan Türkiyə-Azərbaycan əlaqələri ulu öndər Heydər Əliyevin xalqın xahişi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra yeni inkişaf mərhələsinə qədəm qoydu. Ümummilli liderin "bir millət, iki dövlət" kəlamı isə bu münasibətlərin təməl prinsipi oldu. Azərbaycanın müstəqilliyinin ilk olaraq Türkiyə tərəfindən tanınması və diplomatik münasibətlərin qurulması əsl qardaşlıq və həmrəylik nümunəsi kimi tarixə yazıldı.***

İki ölkənin siyasi münasibətlərinə müsbət təsir göstərən ən mühüm amillərdən biri liderlər arasındakı münasibətlər olmuşdur. Ümummilli lider Heydər Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl arasında şəxsi münasibətlər Azərbaycan-Türkiyə əlaqələrini formalaşdırmışdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyev isə iki ölkə arasında münasibətləri əvvəlcə strateji tərəfdaşlıq, daha sonra isə strateji müttəfiqlik səviyyəsinə qaldırdı. 2010-cu ildə hər iki ölkənin prezidentləri səviyyəsində Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası mexanizminin yaradılması, 2021-ci il iyunun 15-də isə Şuşa Bəyannaməsinin imzalanması ikitərəfli münasibətləri daha da möhkəmləndirdi və əlaqələri müttəfiqlik səviyyəsinə qaldırdı. Şuşa Bəyannaməsinin hər iki ölkənin parlamentləri tərəfindən təsdiq edilməsi tarixi hadisəyə çevrildi.

Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq, əməkdaşlıq münasibətləri regional sabitliyə, sülhə və rifaha töhfə verir. 44 gün davam edən və Qarabağ torpaqlarının işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsindən sonra Türkiyə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, qonşuluq münasibətlərinin qurulması, eyni zamanda Qarabağda infrastruktur layihələrin reallaşdırılması, rifahın yüksəldilməsi, enerji və ticarət xətlərinin funksional hala gətirilməsi və regional əlaqələrin gücləndirilməsi istiqamətində səyləri dəstəkləyərək əsl qardaşlıq, dostluq münasibətləri nümayiş etdirir.

Prezident İlham Əliyevin "Türkiyə olan yerdə Azərbaycan var" sözləri iki ölkə arasında birliyin ortaq soykökə, tarixə söykəndiyini, xalqlarımızın ortaq siyasi, intellektual mədəniyyətdən qidalandığını, liderlər arasında münasibətlərin ümumi maraqlara xidmət etdiyini bir daha sübut edir. Bu əlaqələr yalnız dövlətlər səviyyəsində deyil, həm də xalqlarımız arasında da özünü bariz şəkildə göstərir.

**(davamı 5-ci səhifədə)**



# Azərbaycan-Türkiyə həmrəylik, birlik nümunəsi

(əvvəli 1-ci səhifədə)

Azərbaycan neftini dünya bazarlarına çatdıran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum enerji xətlərinin reallaşması nəticəsində Azərbaycan-Türkiyə-Gürcüstan arasında üçtərəfli münasibətlər yaranmış və yeni mərhələyə yüksəlmişdir. Enerji sahəsində TANAP, nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars dəmir yolu layihələri iki ölkənin strateji dəyərini daha da artırmış, Azərbaycan və Türkiyə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlamışdır. Azərbaycanın enerji resurslarını Qərb bazarlarına çıxarmaq üçün ən təhlükəsiz yol olan Türkiyənin Cənubi Qafqazda təsirli güc olması, Şərqlə Qərb arasında enerji və nəqliyyat xətlərinin inkişaf etdirilməsi, bu istiqamətdə "Orta Dəhliz"in yaradılması, TDT-nin səmərəliliyinin artırılması, Gürcüstanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, Rusiya və İran kimi regional dövlətlərlə münasibətlərin qurulması Azərbaycanın regional maraqları ilə üst-üstə düşür.

Türkiyə ilə Azərbaycan arasında hərbi və müdafiə sənayesi sahəsində əlaqələr gündən-günə daha da genişlənir. 1992- ci ildə Azərbaycan ilə Türkiyə hərbi əlaqələri haqqında, 1996-cı ildə hərbi təlim, texniki və elmi saziş, 2010-cu ildə isə Strateji Əməkdaşlıq və Qarşılıqlı Yardım haqqında saziş imzalanmışdır. Əhəmiyyətli hadisələrdən biri isə 2007-ci ildə tərəflər arasında Ali Hərbi Şuranın yaradılması olmuşdur. Bundan sonra müdafiə sənayesi sahəsində əməkdaşlıq daha da möhkəmlənmiş, iki qardaş ölkə silahlı qüvvələrin müasir tələblərə uyğun formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə fəaliyyət göstərmiş və 2020-ci ildən başlayaraq Azərbaycan ordusunun Türkiyə ordusu modelinə keçid prosesi başlamışdı. İki ölkə arasında 2000-ci illərdə müdafiə sahəsində başlayan əməkdaşlıq İkinci Qarabağ müharibəsi zamanı daha da sürətləndi. Belə ki, Türkiyədə hərbi təlim keçən və türk ordusu modeli ilə qurulan xüsusi bölmələrin hərbi uğurları Vətən müharibəsində qazanılan tarixi qələbəni şərtləndirdi. Azərbaycanın Türkiyədən idxal etdiyi Bayraktar TB2-lər Qarabağ müharibəsinin qalibiyyətlə başa çatmasında mühüm rol oynadı. Bu gün də ölkəmiz Türkiyədən müdafiə sənayesi məhsullarının idxalını artırır və bu sahədə əməkdaşlığı daha da genişləndirir.

İki ölkə arasında çoxşaxəli iqtisadi əlaqələr mövcuddur. Bu sahədə əsas məsələ iqtisadiyyatın ayrı-ayrı sahələrinə qarşılıqlı investisiyaların yatırılmasıdır. Bu qarşılıqlı sərmayələr son illərdə həm sürətlə artmış, həm də hər iki ölkə üçün strateji xarakter almışdır. Belə ki, Azərbaycanın Türkiyə iqtisadiyyatına yatırdığı investisiyalar enerji sahəsini, Türkiyənin Azərbaycana investisiyaları isə qeyri-neft sahəsini əhatə edir. Ölkəmiz ən çox investisiya yatırdığı ölkə olaraq Türkiyəyə enerji layihələrinə, neft emalı zavoduna, neft-kimya sektoruna, təbii qazın paylanması və s. sahələrə investisiya qoyuluşunu həyata keçirmiş, o cümlədən SOCAR 2008-ci ildə PETKİM ilə Türkiyə bazarına daxil olmuş və bu günədək fəaliyyətini davam etdirir. SOCAR-ın Star Neft Emalı Zavoduna investisiyası da strateji əhəmiyyət kəsb edir. Digər mühüm investisiya Trans-Anadolu Boru Kəməri layihəsidir. Avropada təbii qaz böhranının yaşandığı bir vaxtda Türkiyənin təbii qaz ehtiyacının artdığını nəzərə alsaq, TANAP həm enerji təchizatı təhlükəsizliyi, həm də resursların şaxələndirilməsi baxımından strateji əhəmiyyətə malikdir.

Azərbaycan ilə Türkiyə arasında münasibətlər diplomatiyadan iqtisadiyyata, hərbidən energetikaya və nəqliyyata qədər bütün sahələri əhatə edir. Bunun bariz nümunəsi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "yol xəritəmiz" kimi xarakterizə etdiyi 15 iyun 2021-ci ildə işğaldan azad edilmiş Şuşada imzalanan "Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi"dir. Təhlükəsizlik, hərbi, iqtisadi, enerji və nəqliyyat sahələrində əlaqələrin daha da şaxələnməsi və möhkəmlənməsini ehtiva edən bəyannamə Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin ən mühüm nailiyyətlərindən biridir. Şuşa Bəyannaməsinin hər iki ölkənin parlamentlərində iki gün fərqlə təsdiq edilməsi bir daha Rəcəb Tayyib Ərdoğanla İlham Əliyevin ortaya qoyduğu iradənin, qətiyyətin təcəssümüdür. 30 ilə yaxın davam edən işğal dövründə Azərbaycanın haqlı mövqeyini bütün platformalarda dəstəkləyən Türkiyə İkinci Qarabağ müharibəsində Azərbaycana siyasi və mənəvi dəstək verdi. Prezident Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının güc mənbəyinə çevrildi.

Azərbaycanın ərazi bütövlüyü uğrunda başlatdığı Vətən müharibəsində qələbəsi, 30 il işğal altında olan torpaqlarını Ermənistanın işğalından azad etməsi iki qardaş ölkənin həm diplomatik, həm də hərbi uğurudur. Bu qələbə həm də Türkiyə ilə Azərbaycanın çətin gündə də, xoş gündə də bir millət, iki dövlət olaraq hər zaman bir yerdə və eyni mövqedə olduğunun göstəricisidir. İkinci Qarabağ müharibəsi bitdikdən sonra Zəfər paradında türk və azərbaycanlı əsgərlərin çiyin-çiyinə inamla addımlaması iki dövlətin birlikdə daha güclü, daha məğlubedilməzliyinin təzahürü idi.

Azərbaycan və Türkiyə regionda sabitliyin, əmin-amanlığın təmin olunmasına birgə səy göstərir və əməkdaşlıq əlaqələrini gündən-günə daha da genişləndirir, bölgənin gələcək inkişafını, təhlükəsizliyini və xalqlarının rifahını təmin edir. Bu siyasətin əsasında isə Azərbaycan-Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması və regionun bütün dövlətlərinin iştirak etdiyi əməkdaşlıq platformasının yaradılması dayanır. Bu gün Türkiyə və Azərbaycanın qarşıya qoyduğu ən vacib məsələ iki ölkəni Ermənistan üzərindən quru və dəmir yolu ilə birləşdirəcək Zəngəzur dəhlizinin reallaşdırılmasıdır.

Ölkələr arasında əlaqələr təkcə ikitərəfli formatda deyil, həm də regional təhlükəsizlik baxımından da böyük əhəmiyyət kəsb edir. 2018-ci ildən etibarən Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" - T3 Vəqfinin təşkilatçılığı ilə hər il Türkiyədə keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının bu il may ayının 26-da ilk dəfə Türkiyədən kənarda olaraq Bakıda keçirilməsi Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının, strateji müttəfiqliyinin möhtəşəm təntənəsidir. Elm, inkişaf və texnologiya festivalı olan TEKNOFEST Azərbaycan ilə Türkiyənin sözdə deyil, əməldə qardaş olan iki dövlət olduğunu göstərdi. Festivalda ölkələrimizin kosmik agentlikləri və müvafiq qurumları bir araya gəldi. Dünyanın ən məşhur aviasiya, kosmos və texnologiya festivalı olan TEKNOFEST iki qardaş ölkənin hər məsələdə olduğu kimi, müdafiə sənayesində də bir-birinə güvənin rəmzi oldu. Milli texnologiya hərəkətlərini bundan sonra birlikdə həyata keçirməyə davam edəcəklərini göstərdi.

Aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat, təhsil və digər sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunması məqsədilə keçirilən festival pilotsuz uçuş aparatları, robotexnika, peyk modelləşdirilməsi və digər sahələr üzrə gənclərə öz bacarıqlarını göstərmək imkanı vermişdir. Gənclərin öz bacarıq və istedadlarını nümayiş etdirmək və inkişaf etdirmək üçün mühüm platforma olan TEKNOFEST müsabiqələrində öz işləri ilə yer tutan gənclərimiz sabahın pilotsuz uçuş aparatlarını, süni intellekt və rəqəmsal texnologiyaları istehsal edən və inkişaf etdirən alimləridir. Bu isə hər iki ölkənin gənclərinin qarşısında yeni üfüqlər açır, ən yeni texnologiyaların istehsal edilməsində əsaslı addımlar atmalarına geniş imkan yaradır.

Azərbaycanla dost, qardaş, etibarlı tərəfdaş olan Türkiyə müharibədə olduğu kimi, sülhdə də Azərbaycanın yanında olduğunu nümayiş etdirir. Regional sülh və sabitlik naminə Azərbaycanın Ermənistana şərtlərini qətiyyətlə dəstəkləyən Türkiyə 30 il ərzində dağıdılmış, minalanmış Azərbaycan ərazilərində indi inkişaf, firavanlıq, əmin-amanlıq yaratmaq, inkişafı sürətləndirməklə davamlı sülhün bərqərar olması, mehriban qonşuluq münasibətlərinin qurulması, regionumuzda sabitliyin möhkəmləndirilməsi üçün birgə səy göstərirlər. Bu məqsədləri həyata keçirmək üçün Azərbaycan-Türkiyə sıx həmrəylik, birlik nümayiş etdirirlər.

**Mehparə ƏLİYEVA, "Respublika".**